# ERMƏNİSTAN AZƏRBAYCANLILARI VƏ ONLARIN ACI TALEYİ

***Fəlsəfə elmləri doktoru Sabir Əsədovun tarix elmləri namizədi İsrafil Məmmədovla zəngin mənbələr, rəsmi məlumatlar və məxəzlər əsasında birgə yazdığı "Ermənistan azərbaycanlıları və onların acı taleyi" tarixi oçerkini oxuculara təqdim edirik.***

***(əvvəli 29, 30 aprel, 1, 2, 3, 5, 6 və 7 may tarixli saylarımızda)***

Bütün bu deyilənlərdən məqsəd erməni millətçilərinin strateji planlarının əsas istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir. Baş istiqamət isə antitürk, antiazərbaycan hərəkatını genişləndirməklə qisasçılıq müharibəsi aparmaq, bu yolla xəyali "böyük Ermənistan" yaratmaq olmuşdur. 1918-1920-ci illərdə daşnak Ermənistanının törətdiyi minlərlə qırğında bunlar aşkar görünür. "Azərbaycan" qəzetində "Ararat Respublikasında" sərlövhəli məqalədə bu məqsəd açıq etiraf edilir. Qəzet yazır:"Yeddi gün bundan əvvəl Qulu adlı bir kəndli bizim Qaraiman kəndinə gələrək bildirdi ki, zabitlər Filimov və Nişanevin başçılığı ilə erməni dəstələri gecə Qızıl Vənd, Subasan və Zağalı kəndlərini mühasirəyə aldılar. Guya pristav çağırır bəhanəsilə bütün kişiləri kənddən çıxardılar, özləri isə kəndi talan etməyə başladılar. Kəndlilər yalvarıb xahiş etdilər ki, nə istəsələr, onların tələbini ödəyərlər, təki onları azad etsinlər. Cavablarında ermənilər bildirdi ki, iki-üç müsəlman kəndini məhv etməklə biz qisas almaqdan doymarıq. Əgər biz 30 kənd də dağıtsaq, bu, sentyabr ayında hətta Bakının kiçik bir küçəsində axıdılan erməni qanı və qurbanları ilə müqayisə edilə bilməz.

Bu üç kəndi dağıdandan 4 gün qabaq ermənilər Çamurlu kəndində 4 kişi və 6 arvadı vəhşicəsinə öldürmüşlər. Həm də kişilərin başlarını kəsmiş, qadınların isə döşlərini. Meyitləri biz özümüz basdırdıq.

Şorca kəndində başına oyun açılmış bir qadın bildirdi ki, kənddə bütün kişiləri qırdılar, uşaqları təndirlərdə yandırdılar, sonra bütün kənddən 8 qadın seçib aparıb 20 gün saxladıqdan, şərəfinə toxunduqdan sonra buraxdılar. ("Azərbaycan" qəzeti, N-30, 9 fevral (27 yanvar) 1919-cu il).

Gəncə qubernatorunun məruzəsində müsəlman əhalisinin ağır vəziyyətindən bəhs edilərək göstərilir ki, ermənilərin vəhşiliyinin həddi-hüdudu yoxdur. Onların yanında orta əsrin kədərli dəhşətləri çox solğun görünər. Adam inana bilmir ki, XX əsrdə bütün Avropada öz mədəniyyətindən dəm vuran bir xalq kömək-siz dinc əhaliyə qarşı vəhşiliklərin bütün üsullarını tətbiq etmiş olsun. Hər gün quberniyanın hər yerindən alınan raportların, məlumatların yaratdığı dəhşətlərlə bu sətirləri yazmaq çətindir: qadınlar zorlanır, uşaqlar odda yandırılır, dillər, qulaqlar kəsilir, işgəncələr, təhqirlər...

Məruzəni başa çatdıraraq ermənilərin hərəkətlərini və vəhşiliklərini belə ümumiləşdirirəm, təkcə Zəngəzur qəzasında 105 (yüz beş) kənd dağıdılmış və qarət edilmişdir.

Skotland-liddel "müsəlmanlarla müharibə, ermənilər yenə hücum edirlər" (Tiflis, 30 yanvar 1919-cu il) məqaləsində yazırdı ki, Ermənistan həmişə davadalaş axtarır və ona nail olanda təbliğat məqsədilə deyirlər ki, amandı qoymayın qırdılar bizi. Daşnak üçün öldürülmüş erməni daha əzizdir. Bundan istifadə edərək, ermənin ölüsü qalxıb harayhəşir təpir ki, ayə, mən özüm ölməmişəm, məni öldürüblər (Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə, Bakı, 1990, s.192-194).

Skotland-liddel elə oradaca sözünə davam edərək yazır: "Ermənilər Zəngəzurda özlərinin indiki çıxışlarında müvəqqəti müvəffəqiyyətlərinə şübhə etmirlər. Onların nizami ordularının əksəriyyəti əvvəllər rus ordusunda xidmət etmişdir. Azərbaycan ordusu isə, demək olar, hamısı gənc əsgərlərdən ibarət idi. Lakin bu müvəffəqiyyət uzun çəkə bilməz: ermənilər nəinki haqsızdırlar, həm də azlıq təşkil edirlər. Bir gün gələcək ki, bütün müsəlmanlar birləşərək bir nəfər kimi onları sıxışdıranlara qarşı qalxdığı zaman erməni xalqını heç bir şey xilas edə bilməyəcək" (Azərbaycan SSR EA xəbərləri, N 4, 1989, s. 84).

Gürcüstan menşeviklər dövründə sərbəst surətdə inamla erməniləri təqib etmişlər, ermənilər isə daşnakların dövründə inamla və cəzasız müsəlmanları qırmışlar. Çünki Avropa və Amerika "dayılarının" əmri belə idi. Onlar "parçala, hökmranlıq et" prinsipi olmadan yaşaya bilməzlər (Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə, Bakı, 1990, s.192-194).

"Ermənilər tərəfindən azərbaycanlıların qırılması çoxdan başlamış, dövlət siyasəti səviyyəsinə qaldırılmış və Azərbaycanın hüdudlarından kənara çıxmışdır. Onda təəccüblənməyə dəyərmi ki, ancaq Ermənistanda daşnak hökuməti "özünün 30 aylıq hakimiyyəti dövründə (may 1918—noyabr 1920) Azərbaycan əhalisinin 60 faizini qırmışdır"("Zarya Vostoka", N 77, 78, 80, s.6, 7, 511, 11 aprel 1923-cü il) .

Q.Muradyan erməni hökumətinin Göyçə gölünün şimal sahilində olan azərbaycanlı kəndlərini dağıdan bandit dəstələrinin bədii təsvirini verərək yazmışdır: "...Bizim hökumətin gördüyü tədbirlər nəticəsində... bu kəndlərin (Toxluca, Ağbulaq, Ardanış və s.) əhalisi Ermənistanın sərhədlərini tərk etmişdir. Mən sahibsiz qalan kəndləri gördüm, orda bir neçə pişikdən, habelə sarsıdıcı sakitlikdən heyrətlənən itlərin qəribə hürüşməsini gördüm. Bu kəndlərin əhalisi çox böyük sahələrdə kartof, buğda və arpa əkini qoyub getmişdilər. Hökumət bu kəndlərdən iki milyon pud buğda və yarım milyon pud kartof götürə biləcək..."("Joğovurd" (xalq) qəzeti, N 105, 1970-ci il.)

"Digər "qəhrəman" erməni arvadları, anaları və bacıları tam soyunmağa məcbur etmiş və əvvəlcədən hazırlanmış gölməçəyə aparıb bütün camaatın qarşısında ördək kimi hərəkət etməyə məcbur etmişdir. Bu alçaq çılpaq qadınları döymüş və saatlarla orada qalmağa məcbur etmişdir. Sonra əmr etmişdi ki, qadınlar həbs olunsun, gecə cavan qadınları və qızları yanına çağırıb təhqir etmiş, onları keşikçilərə vermişdir"(Lalayan A.A. "İstoriçeskiye zapiski", c.2, s.101).

1918-ci ilin avqustunda İgdir və Eçmiədzin qəzalarında müsəlman kəndlərində qırğınlar başlamışdı. Xmbapet Dronun göstərişi ilə 60 kənd dağıdılmışdı. Bu kəndlərdəki bütün kişilər qılıncdan keçirilmiş, gözəl arvadlar isə aparılmışdı (Azərbaycan SSR EA xəbərləri, N 4, 1989,s.120)

"1919-cu il yanvarın əvvəllərində Zəngəzurdakı hadisələrin təsiri ilə, habelə zorla köçürmə və diyarı müsəlmanlardan təmizləmək məqsədilə qəzanın dağlıq hissəsinin 40 min nəfərədək sakini Qarabağın Cəbrayıl, Şuşa və Cavanşir qəzalarına və respublikanın başqa yerlərinə qaçmışdır.

...1919-cu ilin yayının axırlarında Vedibasarda, cənub-qərbi Azərbaycanda və Ermənistanda müsəlmanların vəziyyəti olduqca çətinləşdi. Ermənistanın müsəlman əhalisinin böyük əksəriyyəti bu hadisələrin nəticəsində qaçqınlara çevrildi. Onlar öz kəndlərinə qayıtmaq istəyərkən dəfələrlə qovalanmış, onların evləri və torpaqları Türkiyə erməniləri tərəfindən tutulmuşdur. Ermənistanda belə qarət olunmuş müsəlmanların sayı ancaq Yeni Bəyazid, Eçmiədzin və İrəvan qəzalarında 200 min nəfərə çatmışdır" (Yenə orada, səh. 142, 144).

Azərbaycan Respublikasının Nazirlər Sovetinin sədri bildirir ki, dəqiq məlumata görə, Andranik erməni qaçqınlarını müşayiət etmək bəhanəsi altında öz dəstəsi ilə İrəvan qəzasının müsəlmanlarına qarşı vuruşan erməni qoşunlarına köməyə göndərilir. Bu, İrəvan qəzasının müsəlmanları üçün böyük təhlükə yaradır, çünki onların müsəlmanlar yaşayan yerlərdə yerləşdirmək istədikləri bütün qaçqınlar Türkiyə təbəəli ermənilərdir. Buna sübut olaraq bu faktı göstərmək olar ki, əvvəllər müsəlmanların yaşadıqları yerlərə indi silah gücünə Ararat Respublikasından erməniləri köçürürlər və məhz buna görə ermənilərlə müsəlmanlar arasında əməlli-başlı müharibə gedir(Yenə orada, N2, 1989, s.128).

1918-1920-ci illərdə Ermənistan azərbaycanlılarının başına gətirilən müsibətlər, günahsız adamların, qadınların və uşaqların ağlasığmaz işgəncələrlə qətlə yetirilməsi haqqında şahidlik verən arxiv sənədləri də az deyildir: "Sisyan mahalının 1-ci polis sahəsinin bütün müsəlman kəndləri, 2-ci sahənin kəndlərinin böyük əksəriyyəti, 3-cü, 4-cü və 5-ci sahələrin kəndlərinin xeyli hissəsi tamamilə məhv edilmişdir. Bir çox kənd ermənilər tərəfindən tamamilə yerlə-yeksan edilmiş və 50.000 müsəlman qaçqını Cəbrayıl qəzasında sığınacaq tapmışdır".

Şahidlərin ifadəsinə və rəsmi sənədlərə əsasən Zəngəzur qəzasında 115 müsəlman kəndi dağıdılmışdır (Arxiv sənədində 115 kəndin siyahısı verilir-müəlliflər)...

Göstərilən kəndlərdə 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın, 425 uşaq yaralanmışdır. Bütün qəza üzrə 10068 nəfər müsəlman əhalisi öldürülmüş və şikəst edilmişdir. Lakin erməni vəhşiliyinin dəhşətli martirologu çətin ki, həqiqətə uyğun olmuş və bu rəqəm xeyli artırılmalıdır. Belə ki, qəzada baş verən bu dəhşətli qarmaqarışıqlıqda müsəlmanların təlaşla qaçması qurbanların çoxunu hesablamağa imkan vermirdi.

Şahidlərin ifadələrinə görə ermənilərin qəzada törətdikləri aşağıdakı amansız vəhşiliklər müəyyən edilir:

1) Vağudi kəndində dəstənin erməni soldatlarına paylanmış 15 gözəl qız təhqir edilməklə öldürülmüşdür. 2) Həmin kənd dağıdılarkən sığınacaq axtaran 400 nəfər müsəlman məscidə doldurulmuş, əvvəlcə pəncərədən ora əldəqayırma bomba atılmış, sonra isə məscidə od vurulub bütün adamlar yandırılmışdır. 3) Həmin kənddə Qədimə Tahir qızının xəncərlə döşlərini kəsib elə onun özünün doğranmış körpəsinin ağzına vermişlər. 4) Həmin kənddə yolçu Şahhüseyn oğlunun tənasül üzvünü kəsərək özünün ağzına qoymuşlar. 5) Həmin kənddə cavan qızlar: Nisə Aman qızı, Əcəb Nuhbala qızı, Sona Cəfər qızı, Şahnəli Cəlal qızı zorlanmaqla öldürülmüşlər. 6) Həmin kəndin yanında Gülbəsti Qasım qızı öldürülmüş, döşləri kəsilmiş, fəqərə sümüyünün arasına mıxlanmışdır. 7) Nüvədi kəndində ermənilər yorğan-döşəkdə xəstə yatan Əsədbəy Məlik Abbasovun sinəsinə süngü sancmışlar. 8) Həmin kənddə ermənilər kənddən qaçmaq istəyən qadın və uşaqların başını qılıncla və xəncərlə kəsmişlər. 9) Şəki kəndinin küçəsində döşləri kəsilmiş qadın meyitləri və iki yerə bölünmüş körpə uşaq meyitləri vardır. 10) İrmişli kəndini dağıdarkən ermənilər südəmər uşaqları süngüyə taxmış, meyitlərini tikə-tikə doğramışlar. 11) Ağudi kəndində ermənilər müsəlmanlardan xristianlığı qəbul etməyi tələb etmiş, qadınların döşünü kəsərək körpələrin ağzına soxmuşlar. 12) Ağudi kəndində ermənilər Qulaməli Şəkər oğlunun ayağını topuqdan kəsmiş, sonra süngü ilə dəlik-dəlik edərək canlı ikən ölüncəyə qədər yerimək məcbur etmişlər. 13) Həmin kənddə bütün gözəl qızları zorlamış və öldürmüşlər. 14) Çullu kəndində ermənilər yorğan-döşəkdə xəstə yatan 9 nəfəri qılıncdan keçirmişlər. 15) Bağırbəyli kəndində ermənilər 7 nəfər kişi və qadını bir evə dolduraraq od vurub yandırmışlar. 16) Müsəlləm kəndində meyitlər o qədər eybəcər hala salınmışdır ki, başsız, qolsuz, ayaqsız meyitlərin kim olduğunu tanımaq olmurdu. 17) Qatar kəndində adlı-sanlı qoca Məşədi Qələndər Məşədi Qulu oğlu öldürülmüş, neft tökülmüş və yandırılmışdır. 18) Həmin kənddə ermənilər Kərbəlayi Allahverdi Hüseyn oğlunun əl-qolunu bağlayıb başını kəsmişlər. 19) Vartanidzor kəndində daha çox qadın və uşağı qılıncdan keçirmişlər. 20) Rəhman-Əfəndi kəndində (İrəvan quberniyası, yeni Bəyazid qəzası) qoca kişi İbrahim Hacı Hüseyn oğlunun sağ-sağ gözünü çıxarmış, meyitini yandırmışlar.

Zəngəzur qəzasının yüzdən artıq kəndinin dağıdılması, yüz minlərlə malqara oğurlanması, bağların, tarlaların məhv edilməsi müsəlman qəzasının iqtisadi vəziyyətini dilənçi vəziyyətinə salmış, 50.000-dən çox qaçqın Azərbaycanın kəndlərinə pənah gətirmişdir. Sadə hesablamalara görə, qəzanın azərbaycanlılarına 1 milyard manat zərər vurulmuşdur" (Azərbaycan SSR MDOİA. F. 897, op1.112, v.19).

Zəngəzurda baş verən hadisələr haqqında hər cür yalan məlumatlara yol verməmək üçün Azərbaycan Demokratik Cümhuriyyəti hökuməti aşağıdakı məlumatı verməyi vacib bilmişdir.

"Təqribən bir ilə yaxın Zəngəzur qəzası sahəsində ermənilərdən ibarət müxtəlif silahlı bandit dəstələri fəaliyyət göstərmişdir. Bu bandit dəstələri əhalini qorxudaraq və Azərbaycan hökumətini tanıyaraq müsəlman kəndlərini dağıtmış, öz doğma yurdlarını tərk etməyə məcbur olan və qonşu qəzalarda sığınacaq axtaran dinc əhalini qarət etmişlər. 60 min nəfərdən artıq müsəlman qaçqın, yersiz-yurdsuz aclığın və soyuğun bütün sınaqlarını görmüşlər" (Yenə orada).

Skotland-Liddel "Erməni-tatar sazişi. Qarabağa sülh gəlir" məqaləsində göstərir ki, mən yanvarda Şuşada olarkən bir ingilis zabitinə dedim ki, hazırlaşıram Zəngəzur okruquna gedim və orda qaçqın—müsəlmanların vəziyyətini öz gözümlə görüb əmin olum. Onların sayı 40 min nəfərdən çox idi, hamısı ermənilərdən zərər çəkənlər idi(Yenə orada, f.89, 4, op.10, i.103, v 10-19. Bax həmçinin Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Səh. 238-239).

İrəvan quberniyasında 1918-ci ilin mart ayınadək dağıdılmış və tərk edilmiş müsəlman kəndlərinin siyahısında quberniyada 15155 təsərrüfatı təmsil edən 199 kənd (100626 nəfər) göstərilmişdir. Bu rəqəmlər "Kavkazski kalendar"dan (1908-ci il) götürülmüşdür. 1908-1918-ci ilə qədər əhali artımı da hesablanaraq dağıdılmış kəndlərin əhalisi 135.000 nəfər təşkil etmişdir (Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə, s.220).

***(davamı növbəti saylarımızda)***